*Vaqif YUSİFLİ*

# ƏDƏBİ FRAQMENTLƏR



## «HEYİF O ƏVVƏLKİ BƏNÖVŞƏLƏRDƏN»

***Elə bil torpağın heyi qalmayıb,***
***Daha bənövşənin iyi qalmayıb,***
***Heyif o əvvəlki bənövşələrdən.***

Xalq şairi Musa Yaqub yazda bitən, gözəl qoxulu kiçik çiçəkdən bir şeir yazıb. İçindəki, ruhundakı incikliyi, nigarançılığı, həsrəti bu şeirin sətirlərinə hopdurub. Amma vaxtilə Musa Yaqubun təbiət şeirlərində bənövşə onun hisslərinin, duyğularının şah çiçəyi idi. Mən onun 1986-cı ildə yazdığı bir şeirini oxudum, o, bu şeiri bənzərsiz səsi olan Flora Kərimovaya həsr etmişdi.

***Nədir ilkin yazın ilkin nəğməsi -***
***Bir çiçək qoxusu, bənövşə səsi.***
***Bənövşə nə dinər, nə haray salar,***
***Amma bu nəğmənin yoxdur əvəzi.***

***Mən belə bir sehri salıram yada,***
***Bir mahnı çələngi alır qəlbimi.***
***O qərib, o zərif, o həzin səda***
***Boylanır könlümdən bənövşə kimi.***

Musa Yaqubun bir çox şeirlərində o bənövşənin, ömrü az olub da yazın gəlişini, könüllərə bahar sevinci yaydığını çox izləmişəm. Təbiətin bu nadir çiçəyi onun şeirlərində həm də poeziya çiçəyinə çevrilib. Bənövşə adi bir çiçək deyil, Musanın şeirlərində sevgiylə yaşayan gözdü («Doyunca baxmadım bənövşə gözə»), yar həsrətidir («Bənövşə həsrəti hər şeydən betər»), ürəkdə yatan şirin sözdür ki, dilə gəlmir («Mənim lalə dağım, bənövşə sözüm Qalıb ürəyimdə, amma sənindir»). Musa Yaqubun bir «Bənövşə ömrü» şeiri də var ki, sevgi həsrətini deyərdim ki, heç bir şeirində bu həzinlikdə ifadə etməyib. «Ən isti sözlərim yanır dilimdə, Bənövşə dərmişəm, solur əlimdə»). Şair əlində bənövşə... yarın görüşünü gözləyir. Meşəlikdə də bənövşələr solub.



***Axı bənövşənin de nə ömrü var,***
***Burda zərifliyin gözü yol çəkər.***

***Başqa çiçək vaxtı gecik, nə olar,***
***Bəs adam bənövşə vaxtı gecikər?***
***Əlimin bənövşə vaxtıdır, tələs,***
***Könlümün, gözümün, nazik sözümün,***
***Dilimin bənövşə vaxtıdır, tələs.***
***Boynu əyri qoyma bu zərif gülü,***
***Mən də dayanmışam boynu bükülü.***
***Eh, bənövşə ömrü nədir ki, gülüm!***
***Gəl çıx, solub gedir bənövşə ömrüm!***

Otuz iki il əvvəl yazılmış bu şeirdəki bənzərsiz təşbihləri, metaforaları izlədiniz. Bu bədii təsvir vasitələri təkcə şairlik məharətindən, istedadından doğmur, həm də şairin ürəyindən, sevgi həsrətindən birbaşa şeirləşir. «Elə bircə əlimin bənövşə ətri»…

Bəs indi? Səksən üç sinnində niyə deyir ki: «Heyif o əvvəlki bənövşələrdən». Bənövşə sevgisi, gül-çiçək ətri ürəkdən çəkilib gedibmi? Yox! Onda gərək Musa Yaqub şair olmayaydı. Təkcə bənövşələrin dərdi deyilmiş, təbiətin öz hüsnünün, ahənginin, ekologiya nizamının dəyişdiyidir:

***Sən də insan oğlu, əlini saxla!***
***Açın hasarların darvazasını,***
***Qoy bir nəfəs alsın dustaq meşəmiz.***
***İnsanın rəhmini qaytaraq geri,***
***Bənövşə ətrini qaytaraq geri.***
***Qaytaraq dadını güleyşələrin,***
***Qaytaraq ətrini bənövşələrin.***

Musa Yaqub «Babadağda bir dəli» şeirində də («Azərbaycan», 2014, №4) təbiətin nadir bir nəhəngi - dağ kəlinin faciəsini qələmə alır. Bu nəhəngin bütün nəsli qırılıb, amma «dünyadakı kef adamları, pul adamları, seyf adamları, tamah adamları» o bircə dağ kəlindən əl çəkmirlər. Və Musanın şair harayını eşidirik: «Saxlayın icazə kağızlarını, Bu havapozmalar, bu subasmalar, Bizə təbiətin qarğışlarıdı. Aləmin bizimlə savaşmağıdı, İsgəndər quşunun göz yaşlarıdı. Qılmasın Dağkəli dəli, neyləsin?». Təkcə təbiət itkilərimi? «Bağdadı «durnanın teli»ndə getdi, Qarabağ erməni felində getdi. Getdilər, getdilər, qayıtmadılar».

Beləliklə, Musa Yaqubun 90-cı illərin sonlarından başlanan bu həyəcan təbili - bənövşə nigarançılığından torpaq itkisinə qədər həyəcanları təbiidir. Bunlar heç də yaşının qocalıq dönəmindən gələn zəiflik, kədər-qüssə ahəngi deyil, dəyişilən dövrün, zamanın gətirdiyi ictimai-sosial, anti-təbiət bəlalarıdır. Vaxtilə görkəmli tənqidçimiz Yaşar Qarayev yazırdı: «Mənəvi həssaslıq, əxlaqi kamillik, sədaqət, hünər, cəngavərlik hisslərinin tərbiyəsində təbiət poeziyaya müharibədən az mövzu vermir. Məhz təbiət meyarının sınağında insanın təbiiliyi və gözəlliyi bütün həqiqiliyi ilə üzə çıxır. TƏBİƏT, TƏBİİLİK FAŞİZMİ RƏDD EDİR. Təbiəti sevən insanı təbiət sevər. Şair demişkən:

***Dava sevsəz, torpaq sevən***
***Tale qırmaz, adicə bir yarpaq sevən.***

Musa müəllim, ümidsiz olmayaq, yaz günü bənövşələr yenə açacaq, çiçəkləyəcək, payızda siz deyən kimi: «Pərişan lalənin arxlara dolan yarpaqlarında da payız yaşayar», dağlar çox qəribə olar gecələr, qaratikan dönər qara çırağa, qızılağaclar, söyüdlər yarpaq-yarpaq tamaşaya dönəcək. Təbiətin bu gözəlliyini də, bənövşənin ətrini də, çöllərin otunu da, pərişan söyüdlərin duruşunu, dəmirağaclarının, şah palıdlarının ucalığını… sizin poeziyanız bizə sevdirdi. Mərhum deməyə dilim gəlmədiyi Səyavuş Sərxanlı deyirdi ki, Musa Yaqub Azərbaycan poeziyasının şah palıdıdır, kökü torpağın dərinliklərində, başı ucalarda…

## *“AZADLIQ GÖZƏL QADINDIR”*



Balayar Sadiqin şeirlər, poemalardan ibarət yeni kitabı belə adlanır – «İslanmış göz yaşı».

Bir şair kimi keçən əsrin doxsanıncı illərindən tanınan, XXI əsrin iyirmi ilində isə ədəbi ictimaiyyətin diqqətini cəlb edən Balayar Sadiq artıq öz yaradıcılığının yetkin mərhələsinə qədəm qoyur. Niyə də tanınmasın, Səməd Vurğun əlli beş yaşını görmədi, Müşfiq iyirmi doqquz yaşındaydı qətlə yetiriləndə, Əli Kərim isə 38 il yaşadı. Amma onu da deyim ki, indi şeir meydanı çox basırıqdı, bir şairin tamam-kamal etiraf olunması bəzən qırx-əlli yaşından başlayır. Amma Balayar Sadiqə indi biz yetkin şair kimi qiymət verə bilərik. O, bu səviyyəyə birdən-birə nail olmayıb. İstedad var, şair üçün mövzular da tükənmir, həyat hadisələrindən, cəmiyyətdən, Vətən məhəbbətindən, sevgidən, təbiətdən, öz fərdi duyğularından… nədən istəyirsən yaz. Qəzetlər, jurnallar hər gün şeirlə «nəfəs alır». Amma bu istedadı məlum çərçivələrdə sınayırsansa, «dünyaya yeni bir nəğmə» (S.Yesenin) verə bilmirsənsə, o zaman Məmməd Araz demişkən: «şair ömrü yaşaya bilməzsən». Balayar Sadiqin ilk şeirləri ilə son şeir kitabları arasındakı fərq yaxşılığı irəliyə doğru uzanan bir yolu xatırladır və deyərdim ki, bu çətin yolda o, həmişə axtarışda olub. Mən Balayarı heç bir şairə oxşatmaq və o şairdən təsirləndiyini sübut eləmək fikrində deyiləm. Amma çox sevdiyim bir şair - Əli Kərimin şeirlərində gördüyüm o bənzərsiz təşbihləri, metaforaları xatırlayıram və deyim ki, Balayarın şeirlərində də Əli Kərim yolunu hiss edirəm. Onun Əli Kərimin unudulmaz xatirəsinə həsr etdiyi poemadan bəzi uğurlu, fikrin poetik ifadəsini qüvvətləndirən bir-iki nümunəyə müraciət etmək istəyirəm. Əli Kərimin qəfil vəfatıyla bağlı belə bir neçə misra var: *Sözün infarkt günüydü. Gecənin qara gözləri üşüyürdü pəncərədə hıçqıran lampa işığında.* Gözəl tapıntıdır! Və sonra:

***Uzaqlarda bir nar ağacının***
***gülöyşə yuxusu***
***38 yerdən çatladı.***

***O gün 38 yaşın köynəyi***
***dar gəldi***
***Əli Kərimin əyninə.***

***Ağrıya-ağrıya***
***son dəfə içindəki ağrıya***
***dirsəkləndi Əli Kərim.***

***Göyçayda nar ağaclarının***
***alov-alov çiçəkləri***
***Əli Kərimin ölümünə***
***üsyan bayrağı qaldırmışdı.***

Bu, hər misrası müasir şeir təfəkkürünə uyğun gələn nümunədir. Balayar Sadiq üçün bəlkə də mövzunun özü yox, onun necə, hansı poetik vasitələrlə ifadə etmək önəmlidir. Məsələn, onun Vətənə həsr etdiyi şeirlərinin heç birində standart və şablon ifadələrə, misralara təsadüf etmədim. O, Vətənin ağrılarından daha çox yazır.

***Mən saray şairi ola bilmədim,***
***Bağışla sən məni, bağışla. Vətən!***
***Başını götürüb hara gedirsən,***
***Bir belə təriflə, alqışla, Vətən?!***

***Şəhər küçələri gülümsəyir, bax,***
***Gecələr ac yatar kəndistan yolu.***
***Hər kənddə bir şəhid laylası yatıb,***
***Hər kəndin bir oğul gözləri dolub.***

Əlbəttə, şairi təbii ki, bircə şeirindən də tanıyarlar, ya da heç bircə şeiri olmasın, bütün şeirlərindəki obrazlı deyim tərzindən, orijinal təşbehlərindən, metaforalarından tanıyarlar. Onun hansı ədəbi zövqə malik olduğunu, şeirin hansı vəznində daha çox üstün olduğunu, həyata, insanlara, bu dünyanın gözəlliklərinə və qeylü-qalına, ətrafında cərəyan edən hadisələrə münasibətini şeirləri deyər.

***İlahi, ver əllərini,***
***Bu son ərzimi dəfn edim.***
***Üz-gözü namus ətirli,***
***Körpə arzumu dəfn edim.***

***Qızım, dur, bu dərdə isin,***
***Bu dərddi ləpirin, izin.***
***Güldürdüm qeyrətin üzün,***
***İndi üzümü dəfn edim.***

***Dərd ağacı çiçəkləyib,***
***Elə bilmə, yazdı, canım.***
***Göz yaşımda üzənlərə***
***Ümmanlar dayazdı, canım.***

«Xocalı» adlı bu gəraylı düşmən mühasirəsində yeniyetmə qızı əsir düşməsin deyə onu güllələyən atanın dilindən söylənilir. Balayar tez-tez gəraylıya müraciət edir. Gəraylı bir şeir forması kimi zərif və incədir, böyük «qardaşı» qoşmadan şəkil etibarilə fərqlənmir (qafiyə sistemi, bəndlərin

quruluşu, sonda təxəllüsün işlənməsi, mövzu baxımından), amma ən kövrək, ən incə mətləbləri məncə, gəraylıda söyləmək olur. Deyirlər ki, qoşmanı şair bütün ömrü boyu yazır, təcnisi ən yetkin, aqil çağlarında, gəraylını isə daha çox gəncliyində, bir də gəncliyi ilə vidalaşanda qələmə alır. Balayar Sadiq «Ömrün gəraylı çağları» kitabına daxil etdiyi gəraylıları otuz-qırx yaşları arasında yazıb.

Balayar Sadiqin şeirlərində təşbehlər, metaforalar silsiləsi göz oxşayır. Bu, onun bədii təxəyyülünün çevikliyindən, mütəhərrikliyindən xəbər verir. Özü də bu təşbeh və metaforaların əksəriyyəti təzədir. Gəlin, diqqət edək: *«Dünən bir misra ümid əlləri qoynunda keçdi yanımdan. Göydələnləri kərpic-kərpic ləpələnir bu şəhərin… Bu gün yazmadığım bir şeirin misralarından, İçimdə üşüyən sükutun səsindən asdım özümu. Qəbrimin bir ömür uzaqlığında Ümid qana batmış bayraq kimidir. Əcəl şahə qalxıb kişnəyən yerdə, Cəsarət bir paslı yaraq kimidir».* Axırıncı dörd misrada iki təşbeh var və hər ikisi fikrin ifadəsi üçün yararlıdır. Qana batmış bayraqla pas atmış yaraq arasında da məntiqi əlaqə diqqəti cəlb edib. Balayarın şeirlərində soyuq yataq nakam qəbirə, yuxular ac sərçəyə bənzədilir. Belə təşbehlər bol-boldur.

Balayar Sadiq həm də modern şeirlər yazır. Qoşmadan, gəraylıdan modern şeirə «sıçramaq» o qədər də asan deyil, çox vaxt bu «keçid» uğursuzluqla nəticələnir. Amma Balayar artıq bu tipli şeirlərdə də sınaqdan yaxşı çıxıb.

***Azadlıq***
***gözəl qadındır.***
***Hamı onu sevər,***
***o isə***
***könül verməz heç kimə…***
***Ürəyinin qapısında***
***duran adamların üzündə***
***yalan çiçəkləyib.***

Bu, assosiativ şeirdir. Şeirdə bir-birilə əlaqəsi olmayan iki məfhum - Azadlıq və Qadın məfhumları arasında assosiasiya aparılır. Və nəticədə sintez yaranır - Azadlıq da gözəl qadın kimidir. Şeirin bundan sonrakı iki bəndində bənzətmələr silsiləsi gəlir: dövlətlər işğal olunmuş gözəllikdir…Bayraqlar təcavüzə uğramış gözəlliyin səssiz harayı. Səmanın üzündəki cırmaq izləri himn misralarıdır.. Və nəhayət, son - yekunlaşdırıcı misralar: Belə deyilsə, bəs Azadlıq sözünə qonmuş göyərçinləri kim uçurtdu?! İlk baxışda şeirin birinci yarısı ilə ikinci yarısı arasında məntiqi əlaqə olmadığı nəzərə çarpır. Və oxucu deyə bilər ki, Azadlıq və Qadın məfhumları arasında assosiativ bağlılıq elə burada tamamlanır, əlavə «yeri gəlmişkən»ə ehtiyac var idimi? Təbii ki, yox idi. Amma modernist şeirin mahiyyətinə az-çox bələd olanlar bilir ki, bu tipli şeirlərdə əvvəldən axıradək müəyyən bir sistem yoxdur.

Balayarın modern tipli şeirlərində bənzətmə və metaforalar silsiləsi diqqəti xüsusilə cəlb edir. Bu bənzətmə və metaforaların əksəriyyəti təzədir, orijinaldır. Bəziləri şeirdə fikrin poetik ifadə tərzinə xidmət edir, bəzilərisə sanki göydən asılı qalır, missiyasını yerinə yetirə bilmir, ya da yarımçıq yetirir. Fikrimcə, Balayarın bu axtarışları söz oyunbazlığına yox, sözün mətndə poetik ehyasına kömək edir.

Sonet formasının poeziyamızda görünməsindən bir əsr keçir. Çox maraqlıdır ki, son on ildə sonet janrına tez-tez müraciət olunur. Çox çətindir sonet yazmaq, amma sonetlər çələngi yaratmaq ondan da çətin. Məlumdur ki, sonet Avropa xalqlarının poeziyasında səkkiz yüz illik bir tarixi olan lirik janrlardan sayılır. Sonet italyanca nəğmə mənasını verir. Azərbaycan

ədəbiyyatında isə sonet XX əsrin əvvəllərində təşəkkül tapmışdır. Əlibəy Hüseynzadənin redaktorluğu ilə nəşr olunan «Füyuzat»da Azərbaycan sonetinin ilk nümunələri işıq üzü görüb. Bakıda yaşayan osmanlı ədibi Əhməd Kamal, inqilabçı şair Səid Səlmasi, daha sonra H.Cavid, Əlipaşa Səbur bununla da poeziyaya yeni janr gətirmişlər. Sonrakı onilliklərdə isə A.Şaiq, M.Müşfiq, A.Yıldırım, Ə.Kürçaylı, Adil Babayev, Şəkər Aslan, Vaqif Hüseynov, Abbasağa, Rəfiq Zəka, Sabir Mustafa, Abbas Abdulla, Elşad Səfərli bu janrın tamamilə milli məzmunla zənginləşən nümunələrini yaratmışlar. Öncə qeyd etdiyim kimi, sonet yazmaq çox çətindir və çətinliyi orasındadır ki, burada gərək sonetin formal strukturuna da əməl edəsən. Bu haqda dəyərli sonet mütəxəssisimiz professor Hüseyn Həşimlinin «Azərbaycan poeziyasında sonet və terset» monoqrafiyasında ətraflı məlumatla rastlaşa bilərsiniz...

Balayar Sadiq son illərdə bu janra tez-tez müraciət edir. O, həm italyan sonetinin quruluşuna uyğun sonetlər yazır, həm də sonetlər çələngi qələmə alır. Xüsusilə, sonetlər çələngi yaratmaq şairdən istedad tələb edir. Azərbaycan ədəbiyyatında onun ilk nümunəsini Şəkər Aslan yaratmışdır. Məlumdur ki, hər bir sonet iki katren (iki dörd misra) və iki tersetdən (iki üç misra) ibarətdir. Bu katrenlər və tersetlər arasında məntiqi əlaqə qırılmamalıdır. On dörd sonet və sonetlər çələngi yaradırsansa, on beşinci sonet hər sonetin birinci misralarından təşkil olunur. Bu, Balayarın «Həsrət qoxulu misralar» adlı sonetlər çələnginin onbeşinci soneti:

***Sevgi məktubudu sənin gözlərin,***
***Ağlımı başımdan elə aldı ki…***
***Ömrümü-günümü yıxıb gedirsən,***
***Daha yıxılmamış nəyim qaldı ki?!***

***Adımı üstündən toz kimi çırp get,***
***Ta vida nəğməsi nəyə gərəkdi.***
***Səndən vəfalıdır sənin həsrətin,***
***Qəlbimlə xatirə şəklini çəkdi.***

***Arzular çatlayıb gülöyşə kimi,***
***Hərdən boynubükük bənövşə kimi.***
***Misralar içində adımı yoxla.***

***Candan ağrı-ağrı mən sökülmüşəm,***
***Bax bir salamatam, yoxsa ölmüşəm,***
***Götür öz ovcuna - qəlbini yoxla.***

Təbii ki, bu yazıda mən Balayar Sadiqin bütün şeir və poemalarını əliyyüləla hesab eləmirəm. Onun şeirlərində də ortabab misralar, bir çox şeirlərində fikrin bədii ifadə ilə uzlaşmaması hallarına rast gəlmək olar. Məncə, Balayarın Xətaiyə həsr etdiyi poeması, həmçinin Mübariz İbrahimovun qəhrəmanlığından söz açan poeması əsl «balayarsadiqlikdən» aşağıdır. Sonetlərə və sonetlər çələnginə tez-tez müraciət etmək də, məncə, aludəçiliyə gətirib çıxarır və get-gedə əvvəlki sonetlərinin «dadı-duzu» az duyulur. Özü də bunu gec-tez hiss edəcək.

Balayara heç bir məsləhət vermək istəməzdim. Məncə, onun poetik axtarışları tükənməyib.